# KİTABXANAŞÜNASLIQ

*Kamandar Şərifov. Məkkə kitabxanasındakı Azərbaycan əlyazmaları // Əlyazmalar yanmır, 2018, №2(7), s. 160-164.*

**Kamandar Şərifov**
*filologiya elmləri doktoru, professor*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küçəsi26.*
*sherifov41@mail.ru*

## MƏKKƏ KİTABXANASINDAKI AZƏRBAYCAN ƏLYAZMALARI

**Açar sözlər:** *orta əsr əlyazması, Məkkə, kitabxana, Azərbaycan, alim*
**Ключевые слова:** *средневековая рукопись, Мекка, библиотека, Азербайджан,* ученый
**Key words:** *medieval manuscript, Mecca, library, Azerbaijan, scholar*

Azərbaycan xalqının mədəniyyət xadimlərinin qədim dövrlərdən başlayaraq zəmanəmizədək yazıb-yaratdıqları elm və ədəbiyyat abidələri ölkəmizin coğrafi ərazisi ilə məhdudlaşmayaraq, bütün dünyaya yayılmışdır. Bununla bərabər klassiklərimizin bir qismi Şərq ölkələrinin ayrı-ayrı mədəniyyət mərkəzlərində fəaliyyət göstərdiklərindən və əsərlərini həm də ərəb və fars dillərində yazdıqlarından onların əsərlərinin əlyazma nüsxələri bu ölkələrin kitabxanalarında və ayrı-ayrı ziyalıların şəxsi kolleksiyalarında özünə yer almışdır. Təsadüfi deyildir ki, Azərbaycan klassiklərinin elmi və bədii irsini mükəmməl tədqiqatlara cəlb edərkən dünyanın müxtəlif mədəniyyət mərkəzlərində yerləşən kitabxana və muzeylərə müraciət etməli oluruq. Bir sıra hallarda bəzi müəlliflərin əsərlərinin orta əsr əlyazmalarının ölkəmizdə bir və ya iki nüsxəsi əldə edilirsə, başqalarının əsərlərinin əlyazma nüsxələrinin ancaq xarici ölkələrin kitabxanalarında axtarmaq məcburiyyətində qalırıq. Ən yaxşı halda belə abidələrin bir və ya iki əlyazma nüsxələrini əldə etməyə müvəffəq ola bilirik. Əgər “Kitabi-Dədə Qorqudun zəmanəmizədək gəlib çatmış iki əlyazma nüsxəsini Vatikan və Drezdendən əldə etmək mümkün olmuşsa, XVII əsr Azərbaycan nüsxəsindən birini Məşhəd kitabxanasından , ikincisini Tibilisi Əlyazmalar İnstitutundan, üçüncüsünü isə Misrin “Dərül-kutub vəl-Vəsaiqil-qaumiyyə” kitabxanasından (1; 2, 6-7) aşkar etmək mümkün olmuşdur. XVI-XVII əsrlərdə yazıb yaratmış Rəhməti Təbrizinin divanının isə yalnız bir nüsxəsi əldə edilmişdir (3).

Dünya, xüsusən Şərq ölkələrinin kitabxana və muzeylərində Azərbaycan klassiklərinin əsərlərindən ibarət əlyazma kolleksiyalarının olduğu elm aləminə yaxşı məlumdur. Belə kitabxana və muzeylərdə saxlanılan Azərbaycan klassikləri əsərlərinin əlyazma nüsxələrinin əldə edilərək, tədqiqatlara cəlb edilərsə, mədəniyyət tariximizi daha dərindən öyrənmiş olarıq. Bir sıra alimlərimizin ayrı-ayrı əsərləri xarici ölkələrdə çoxdan tədqiq və nəşr olunsa da, ölkəmizdə onların irsi hələ tədqiqat obyektinə çevrilməmişdir. Azərbaycan klassiklərinin çoxlu sayda orta əsr əlyazmalarını öz fondunda toplamış belə kitabxanalardan biri də Səudiyyə Ərəbistanının Məkkə şəhərində yerləşən “Məktəbət əl-Haram əl-Məkki əş-Şərif” (“Şərafətli Məkkə ocağının kitabxanası” əlyazma kitab xəzinəsidir. Bu xəzinədə bir sıra Azərbaycan müəlliflərinin ayrı-ayrı əsərlərinin çox dəyərli əlyazma nüsxələri saxlanılır. Onların yaratdıqları elmi irsi bu kitabxanada qorunub saxlanmaqla bərabər, həm də ərəb alimləri tərəfindən tədqiq və nəşr olunsa da, hələlik bu əlyazma abidələri bizim alimlərin maraq dairəsindən kənarda qalmışdır. Elmi irsi ölkəmizdə hələlik lazımınca öyrənilməmiş alimlərdən biri də XII-XIII əsrlərdə yaşayıb yaratmış Siracəddin Mahmud bin Əbu Bəkr bin Əhməd bin Hamid Urmavi

Azərbaycanidir. (1198-1283). O, görkəmli mütəfəkkir, filosof, məntiqçi, şair, müfəssir, fəqih və mütəkəllim kimi şöhrət tapmış və özündən sonra zəngin elmi irs qoyub getmişdir. (4, IX, 462; 5; 6; 7,344-347) Alim “Mətali əl-ənvar fil-məntiq vəl-hikmə”, “Bəyan əl-haqq fil-məntiq vəl-hikmə”, “Şərh əl-işarət vət-tənbihat fil-məntiq vəl-hikmə”, “Mənahic fil-məntiq vəl-hikmə”, “ər-Rəsail fi-ilmil-cədəl”, “Təhzib ən-nukat fi ilm əl-cədəl”, “Lətaif əl-hikmə fil-məntiq”, “Şərh əl-mucəz fil-məntiq”, “Ərbəin fi üsuldin”, “Ləvamiül-mətali”, “Risalə fi əmsilətittəarüd fi üsul əl-fiqh”, “əl-Əsilə”, “ət-Təhsil minəl-məhsul” “Muxtəsər əl-məhsul”, “Şərh əl-vaciz lil-Qəzali” və başqaları kimi fəlsəfəyə, məntiqə və fiqhə aid traktatların müəllifidir.

Hicri 594 (1198)-ci ildə Cənubi Azərbaycanın Urmiya şəhərində dünyaya gəlmiş bu böyük şəxsiyyət ilk təhsilini doğma şəhərində aldıqdan sonra, Mosula gedərək orada İbn əs-Subkinin yazdığı kimi 24 fənni dərindən bilən, Tövrati, İncili yəhüdilərə və xaçpərəstlərə onların yepiskoplarından və din xadimlərindən daha yaxşı şərh edən, ensiklopedik zəka sahibi olan Kamaləddin Musa ibn Yunisdən (ö. 639/1241) elm öyrənmiş və elmdə ən böyük şöhrəti burada qazanmışdır. Yaqub əl-Həməvi özünün “Mucəm əl-buldan” əsərində dövrünün tanınmış alimləri olmuş Əbu Abdullah əl-Hüseyn bin Abdullah bin Məhəmməd əş-Şuveyx (268/881), Əbul-Fadl Məhəmməd bin Ömər bin Yusif əl-Urməvi (1177-1255) və Müzəffər bin Yusif əl-Urməvinin (XII əsr) də bu şəhərdən olduğunu qeyd etmişdir.

Siracəddin Urməvi Mosulda fiqh, məntiq, fəlsəfə, kəlam və başqa elm sahələri üzrə mükəmməl təhsil almışdır. Bəzi mənbələrdə onun görkəmli alim Fəxrəddin Razinin (ö.606/1209) tələbəsi olduğu qeyd edilir. Lakin Fəxrəddin Razi vəfat edərkən onun ömrü 10 yaşdan bir qədər çox olmuşdur. Lakin ehtimal etmək olar ki, o, göstərilən elmlər üzrə Fəxrəddin Razinin tələbələrindən dərs almışdır. Bununla bərabər Fəxrəddin Razinin tələbəsi olmuş, bir müddət Koniyada yaşayıb, sonra Bağdad şəhərinə köçərək 1258-ci ildə orada vəfat etmiş, əllamə Tacəddin Əbul-Fəzail Məhəmməd Urmavinin (1177-1255) tələbəsi olduğunu da ehtimal etmək olar. 7,344-345 Alim elmlərə dərindən yiyələnmədən, böyük şöhrət qazanmadan Mosul şəhərini tərk etməmişdir. O, Misrə gedib orada müəyyən müddət qaldıqdan sonra Anadoluya Malatyaya gəlmişdir. Malatiyada Səlcuq sultanı Əlaəddin I Keyqubadın əmrilə mədrəsədə müdərris təyin edilmişdir. Daha sonra Konya qazisi, ardınca isə Səlcuq dövlətinin baş qazisi təyin edilmişdir. Siracəddin Urməvi təlim-təhsil, elmi yaradıcılıq və çoxlu səfərlərlə zəngin olan bir həyat yaşamışdır. Məhəmməd bin Əbdürrəhman bin Məhəmməd əş-Şeyx Səfiəddin əl-Urməvi onun şagirdi olmuşdur.

Siracəddin Urməvinin məntiqə, fəlsəfəyə, fiqhə, kəlama və başqa elm sahələrinə dair yazdığı əsərləri elm aləmində böyük şöhrət qazanmışdır. İbn Bibi onun haqqında belə yazır: “Qazilər qazisi, alimlərin hökmdarı, imamların sultanı, dövrün şərhçisi, məliklər və sultanların atası, islamın hüccəti Siracəddin Əbüs-Səna Mahmud əl-Urməvi alimlərin və mütəfəkkirlərin qabaqcıllarından idi. Bütün fənni və nəzəri elmlərdə, üsul, məntiq, fiqh və cədəl elmində yaşadığı dövrdə onun misli bərabəri yox idi” (8, 700).

Zəngin elmi irsi hələ öz Vətəni Azərbaycanda ayrıca demək olar ki, öyrənilməmiş bu görkəmli alimin Məkkə şəhərindəki “Məktəbət əl-Haram əl-Məkki əş-Şərif” (“Müqəddəs Şərafətli Məkkə kitabxanası”) kitabxanasında Siracəddin Mahmud Urməvinin iki məşhur, yəni 1219-cu ildə tamamladığı “ət-Təhsil minəl-məhsul” traktatının və 1228-ci ildə ərəb dilindən fars dilinə tərcümə etdiyi Razinin “Risalə fil-fərq beynə moudu əl-ilm əl-ilahi vəl-kəlami” tərcümə əsərinin əlyazma nüsxələri saxlanılır.

Siracəddin Urməvinin üsuli fiqhə həsr olunmuş bu əsəri görkəmli alim Fəxrəddin ər-Razinin “əl-Məhsul” əsəri əsasında yazılmış (9, II, 1615-1616) və böyük şöhrət qazanmışdır. Əsərin orta əsr əlyazma nüsxələri yalnız Şərqdə deyil, eyni zamanda Qərbdə də yayılaraq, ayrı-ayrı kitabxanaların çox dəyərli mirasına çevrilmişdir.

Alimin “ət-Təhsil minəl-məhsul” əsərinin beş orta əsr əlyazma nüsxəsi Türkiyədə saxlanılır. Bu əlyazmalardan biri Süleymaniyyə kitabxanasında, digəri Süleymaniyyə kitabxanasının nəzdindəki “Yeni Came” kitabxanasında, üçüncüsü Süleymaniyyə kitabxanasının nəz-

dindəki Vəliəddin Cərullah əfəndinin kitabxanasında, dördüncüsü yenə Süleymaniyeyə kitabxanasının nəzdindəki "Laləli", beşincisi isə İstanbuldakı Murad Molla kitabxanasının nəzdindəki "Damadzadə" kitabxanasında saxlanılır. Əsərin başqa bir nüsxəsi isə Mədinədə "Şərafətli Peyğəmbər Məscidi"nin nəzdindəki "əl-Mahmudiyyə" kitabxanasında mühafizə olunur. Əsərin özünə yer aldığı kitab xəzinələrindən biri də Misir Ərəb Respublikasının ən məşhur və ən zəngin "Dərül-kutub vəl-vasaiq əl-qoumiyyə" kitabxanasıdır. Bağdadın Şeyx Əbdülqadir Gilani cameinin nəzdindəki "Qadiriyyə" kitabxanasında saxlanılan əlyazması əsərin ən dəyərli nüsxələrindəndir. Şimali Afrikada Məğribin Fas şəhərindəki "Qərəviyyin" kitabxanasında da əsərin bir əlyazması vardır. Qeyd edildiyi kimi Siracəddin Urməvinin bu əsəri Avropa kitabxanalarında da Şərəfli yerlərdən birini tutmuşdur. Onun bir nüsxəsi Oksford Universitetinin "Bodlyan" kitabxanasında, başqa bir əlyazması isə Almaniyanın "Qota" kitab xəzinəsində mühafizə olunur.

Siracəddin Urməvinin "ət-Təhsil minəl-məhsul" əsəri islam Şərqində böyük şöhrət qazandığından çağdaş ərəb alimlərinin tədqiqat obyektinə çevrilmişdir. Ərəb alimi doktor Əbdülhəmid Əli bin Zənidin əsər üzərində apardığı mükəmməl araşdırmalar böyük maraq doğurur. O, "ət-Təhsil minəl-məhsul" əsərini tədqiq edərkən müəllifin fikir və mülahizələrində heç bir yanlışlığa yol verməmək məqsədilə, hər şeydən öncə traktatın elmi-tənqidi mətnini tərtib etmək qərarına gəlmişdir. Doktor Əbdülhəmid Əli bin Zənid əsərin dünya kitabxanalarında saxlanılan əlyazma nüsxələrini əldə edərək, traktatın elmi-tənqidi mətnini tərtib etmişdir. Bununla bərabər o, Siracəddin Urməvinin dövrü, həyatı və yaradıcılığını ətraflı şəkildə işıqlandırdıqdan sonra, verdikdən sonra, elmi-tənqidi mətn əsasında əsərlə bağlı geniş araşdırmalar vermişdir. Bu mükəmməl tədqiqat əsəri elmi-tənqidi mətnlə birlikdə 1988-ci ildə Beyrutda iki clddə nəşr olunmuşdur (10).

Siracəddin Urməvinin fəlsəfəyə və məntiqə aid "Mətali əl-ənvar fil-məntiq vəl-hikmə" traktatı ən çox yayılmış və hələ orta əsrlərdə böyük şöhrət qazanmış əsərlərindəndir. Alimin bu traktatına orta əsrlərdə onlarla şərqin görkəmli mütəfəkkirləri tərəfindən şərh və haşiyələr yazılmışdır (9, II, 1715-1717). Onlara misal olaraq Qütbəddin Məhəmməd bin Məhəmməd ər-Razi ət-Təhtani (706/1306-1307), əs-Seyyid əş-Şərif Əli bin Əhməd əl-Cürcani (816/1413), Əhməd bin Süleyman Kamal Paşa (940/1533), Cəlaləddin Məhəmməd bin Əsəd əd-Dəvvani (908/1502), Şəmsəddin Əbus-Səna Mahmud bin Əbdürrəhman əl-İsfahani (749/1348 və başqaları kimi alimləri göstərmək olar. Bu əsərə şərh və haşiyələr yazan şəxsiyyətlərin sırasında iki azərbaycanlı alimlər də vardır. Onlardan biri Şəmsəddin Məhəmməd bin Şihab Şirvani (892/1487), digəri isə Əbdürrəhim Şirvanidir (1134/1722). Onların hər ikisi dövrünün tanınmış alimləri olmuşlar.

Siracəddin Urməvinin "ət-Təhsil minəl-məhsul" əsəri kimi "Mətali əl-ənvar fil-məntiq vəl-hikmə" əsəri və ona yazılmış onlarla şərh və haşiyələrin orta əsr əlyazma nüsxələri də Şərqdə və Qərbdə geniş yayılmışdır (9, II, 1715-1717). Həmin əlyazmalar Səudiyyə Ərəbistanındakı "Kral Əbdüləzizin ümumi kitabxanasında, Misrin "İskəndəriyyə kitabxanası"nda, "Zeydan" kitabxanasında, Paris Milli kitabxanasında, Qahirənin "Dərül-kutub vəl-vəsaiqülqaumiyyə" kitab xəzinəsində, Londonun "Hind" mərkəzində, London kitabxanasında, Leyden kitabxanasında, Berlin kitabxanasında və başqa mərkəzlərdə, kitab xəzinələrində mühafizə edilməklə bərabər, həm də araşdırılaraq nəşr etdirilir. Misal olaraq göstərmək olar ki, "Mətali əl-ənvər fil-məntiq vəl-hikmə" əsərinə Qütbəddin ər-Razinin yazdığı şərhə Şərqin görkəmli mütəfəkkiri əs-Seyyid əş-Şərif Əli bin Əhməd əl-Cürcaninin həsr etdiyi böyük həcmli, mükəmməl haşiyə iki dəfə nəşr olunmuşdur. Birinci dəfə 1303 (1885)-cü ildə İstanbulda iki cilddə, 1314 (1896) –cü ildə isə Tehranda nəşr olunmuşdur.

Göstərilən "Şərafətli Məkkə ocağının kitabxanası"nda başqa Azərbaycan alimlərinin əlyazmaları da saxlanılır. Onlara nümunə olaraq, Kamaləddin Məsud Şirvaninin (600/1203-1204), Şərqin görkəmli mütəfəkkiri Məhəmməd bin Əşrəf əl-Hüseyni əs- Səmərqəndinin (600/1204) "Ədəb əl-Fadil Şəmsəddin" əsərinə yazdığı məşhur şərhinin əlyazmasını göstərmək olar. Bu

şərh Məhəmməd Səmərqəndinin göstərilən əsərinə yazılmış ən məşhur və ən mükəmməl tədqiqat əsəridir. Bircə onu qeyd etmək kifayətdir ki, Məsud Şirvaninin bu şərhinə Cəlaləddin Məhəmməd bin Əsəd əs-Siddiqi əd-Dəvvani (908/1502), Dinqoz adilə tanınmış Mövlanə Əhməd, Usaməddin İbrahim bin Məhəmməd əl-Əsfəraini (943/1536), Musənnifək adilə tanınmış Əlaəddin Əli bin Məhəmməd (871/1466), Şair Sinan adilə tanınmış Sinanəddin Yusif ər-Rumi və başqaları kimi 17-dən şox Şərq alimləri bu şərhə haşiyələr yazmışlar. Bu haşiyə müəllifləri sırasında Əbdürrəhim Şirvani, Məhəmməd Naxçivani də vardır. Şirvaninin göstərilən şərhinin daha bir neçə əlyazması Dubayda "Cuma əl-Macid mədəniyyət və irs" mərkəzində saxlanılır.

Məkkə kitabxanasında dünya elminin fəxri Nəsirəddin Tusinin "Risalə fi ilm əl-fələk", Cəmaləddin Məhəmməd bin Əbdülqəni əl-Ərdəbilinin (647/1249) "ər-Risalə əl-ilmiyyə", Abdulla bin Məhəmməd əl-Ərdəbilinin "ər-Risalə əş-Şəmsiyyə", Sədəddin Sədulla Bərdəinin "Hədaiq əd-dəqaiq", Xətib Təbrizinin "Mişkət əl-məsabih", Həsən əl-Hüseyni Xalxalinin "Haşiyə alə şər əl-əqaid ən-Nəsəfi" və "Risalə fi mərifət vaqt əz-zəval" əsərlərinin əlyazmaları saxlanılır. Azərbaycanın görkəmli alimləri Əbdülqadir bin Abdulla əs-Suhrəverdinin "Ədəbül-muridin", Əbu Bəkr əl-Mərağinin (727/1327-816/1413) "Təhqiq ən-nusra bi təlxis məalim dəril-hicrə", Xətibi Diməşq adilə tanınmış Cəlaləddin Məhəmməd bin Əbdürrəhman əl-Qəzvininin "Təlxisül-miftah fil-məani vəl-bəyan", Əbu Abdullah bin Zəkəriyyə əl-Qəzvininin "Havadis fi əşruh əs-sənə", Nəsirəddin Tusinin tələbəsi, Dəbiran əl-Katibi əl-Qəzvini adı ilə şöhrət tapmış Nəcməddin Əbul-Həsən Əli bin Məhəmmədin "Hikmətül-ayn", Əhməd bin Əbdürrəzzaq ət-Tantaraninin "əl-Qəsidəət-təntəraniyyə" və başqalarının əsərlərinin əlyazmaları bu kitabxananın ən dəyərli abidələrindəndir.

Qeyd edilənlərdən başqa Məkkə kitabxanasında Azərbaycan müəlliflərinə mənsub olan, çoxlu sayda əsərlərin orta əsr əlyazma nüsxələri saxlanılır.

**Ədəbiyyat:**


1. Şərifov K. Misirdəki yazılı abidələrimiz. – "Ədəbiyyat qəzeti", 23 may 2003.
2. "Dərül-kutub" da saxlanılan Azərbaycan əlyazmaları. - Kamandar Şərifli. Misirin "Dərül-kutub vəl-vəsaiqil-qaumiyyə" kitabxanasındakı Azərbaycan əlyazmaları. Bakı, 2014.
3. Bağırov Ə. Rəhməti Təbrizi və onun divanı. Bakı, 2006.
4. Azərbaycan Sovet Ensiklopediyası. IX c. Bakı, 1986.
5. Məmmədov Z.C. Siracəddin Urməvi-"Azərbaycan SSR EA məruzələri". 1967, №9.
6. Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, 1978.
7. Nəsirov E. Orta əsrlərdə yaşamış Azərbaycan alimləri. Bakı, 2011
8. İbn Bibi Hüseyn bin Məhəmməd. Əvamirül-əlaiyyə fi umuril-Əlaiyyə. Ankara, 1956
9. Mustafa bin Abdullah əş-şəhir bi Hacı Xəlifə və Katib Çələbi. Kəşf əz-zünun an əsami əl-kutub vəl-funun. II c., Beyrut.
10. Siracəddin Mahmud bin Əbi Bəkr əl-Urməvi, Ət-Təhsil minəl-məhsul (doktor Əbdülhəmid Əli Əbu Zənidin tədqiqində). I və II c. Beyrut, 1988.

**Kamandar Sharifov**

**Azerbaijani manuscripts in the Mecca library**

***SUMMARY***

This article describes the medieval Azerbaijani manuscripts that were preserved in the Mecca library and also the research of these manuscripts by Arabian scholars. Among Azerbaijani manuscripts kept there, we can mention "Risala fi ilm al-falak" by Nasiraddin Tusi, "ar-Risala al-ilmiyya" by Jamaladdin Muhammad bin Abdulgani al-Ardabili, "Mishkat al-masabih" by Khatib Tabrizi, "Tahgig an-nusra bi talkhis maalim daril-hijra" by Abu Bakr al-Maraghi, "al-Gasidat-tantaraniyya" by Ahmad bin Abdurrazzag at-Tantaraniand others. Special attention in the article is paid to the outstanding philosopher, poet, fagih and thinker Sirajaddin Mahmud bin Abu Bakr bin Ahmad bin Hamid Urmavi Azerbaijani and his works "Matali al-anvar fil-mantig val-hikma", "Bayan al-hagg fil-mantig val-hikma", "Sharh al-mujaz fil-mantig", "Sharh al-vajiz lil-Gazali" and many others.

**Камандар Шарифов**

**Азербайджанские рукописи в Мекканской библиотеке**

***РЕЗЮМЕ***

В данной статье описываются средневековые азербайджанские рукописи, хранящиеся в Мекканской библиотеке, а также исследование данных рукописей арабскими учеными. Среди азербайджанских рукописей, хранящихся там, можно отметить «Рисала фи илм аль-фалак» Насираддина Туси, «ар-Рисала аль-илмийа» Джамаладдина Мухаммада бин Абдулгани аль-Ардабили, «Мишкат аль-масабих» Хатиба Табризи, «Тахгиг ан-нусра би талхис маалим дариль-хиджра»Абу Бакра аль-Мараги, «аль-Гасыдат-тантаранийа» Ахмада бин Абдурраззага ат-Тантарани и т.д. В статье особое внимание уделено выдающемуся философу, поэту, богослову и мыслителю Сираджаддину Махмуду бин Абу Бакр бин Ахмад бин Хамид Урмави Азербайджани и его произведениям «Матали аль-анвар филь-мантыг валь-хикма», «Байан аль-хакк филь-мантыг валь-хикма», «Шарх аль-муджаз филь-мантыг, «Шарх аль-ваджиз лиль-Газали»и многим другим.

*Redaksiyaya daxil olma tarixi: 12.09.2018*
*Çapa qəbul olunma tarixi: 27.11.2018*

Akademik **Möhsün Nağısoylu** tərəfindən
çapa tövsiyə olunmuşdur.